# İQTİSADİ XƏBƏRLƏR

2012-ci ilin başa çatmasını nəzərə alaraq, jurnalın ilk buraxılışını dünya ölkələrinin ötən ildə maliyyə-iqtisadi vəziyyətinin təhlilinə həsr etmişik. Əlbəttə, prioritet məsələ qismində qlobal iqtisadi böhranın təsirini və ondan xilas olma mexanizmlərinin bu ölkələrdə tətbiqini seçmişik. Bununla paralel olaraq, dünyada yaşanan böhranın Azərbaycan iqtisadiyyatına təsirindən və ölkəmizdə baş verən mühüm iqtisadi hadisələr barədə ətraflı məlumat vermişik.



## AZƏRBAYCAN

Bildiyiniz kimi, dekabr ayının ən mühüm hadisələrindən biri Milli Məclisdə 2013-cü ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi olub. Qeyd olunub ki, növbəti ilin də büdcə layihəsi sosial və investisiya yönümlü olmaqla müasir dövrün çağırışlarına cavab verir. 2013-cü ilin büdcəsi ölkənin maliyyə təminatını yaradan və əhalinin rifahını daha da yüksəldilməsinə təminat verən bir sənəddir.

Milli Məclisin sədri Oqtay Əsədov qeyd edib ki, büdcə layihələri müasir, qlobal dövrün təsirləri nəzərə alınmaqla ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun hazırlanıb.

Milli Məclisin iqtisadi-siyasət komitəsinin sədri Ziyad Səmədzadə isə bildirir ki, dünyadakı qlobal maliyyə böhranına baxmayaraq Azərbaycan uğurlu siyasəti nəticəsində iqtisadi inkişafını davam etdirir, ölkənin maliyyə imkanları artır. Ümumdaxili məhsulun artım tempinə görə Azərbaycan Müstəqil Dövlətlər Birliyi məkanında lider ölkələr sırasındadır. 2013-cü ildə ümumdaxili məhsulun həcmi 71 milyard dollar təşkil

edəcək ki, bu da 2003-cü illə müqayisədə 8 dəfə çoxdur. Müstəqilliyinin 20 ili müddətində ən yüksək artım Azərbaycanda qeydə alınıb. Son 10 ildə dövlət büdcəsi 1 milyard manatdan 25 milyard manata çatdırılıb. Qeyri-neft sektoru üzrə artım 10 milyard təşkil edəcək ki, bu da neft sektoru üzrə azalmanı 1,9 dəfə üstələyəcək.




Büdcə layihəsini təqdim edən maliyyə naziri Samir Şərifov əvvəlki illərdə aparılan uğurlu siyasətin davamı olaraq 2013-cü ildə də əsas iqtisadi məqsədin milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, qeyri-neft sektorunun sürətli inkişafı, sahibkarlığın inkişaf etdirilməsi, ölkə iqtisadiyyatının diversifikasiyası və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin təminatı olacağını deyib. Bildirib ki, 2013-cü ilin dövlət büdcəsinin gəlirləri ümumi daxili məhsulun 34,2 faizini təşkil etməklə 19 milyard 154 milyon manat proqnozlaşdırılır ki, bu da 2012-ci ilin proqnoz göstəriciləri ilə müqayisədə 12,4 faiz, 2011-ci ilin faktiki icrasına nisbətən 22 faiz çoxdur. 2013-cü ilin dövlət büdcəsinin xərcləri ümumi daxili məhsulun 35,3 faizini təşkil etməklə 19 milyard 810 milyon manat həcmində proqnozlaşdırılır. Bu isə 2012-ci ilin büdcə proqnozlarına nisbətən 12,1 faiz, 2011-ci iln faktiki icrasına nisbətən isə 28,7 faiz çoxdur. 2013-cü ilin dövlət büdcəsinin xərclərində sosialyönümlü xərclərin xüsusi çəkisi 25,4 faiz olmaqla, 5 milyard 37 milyon manat proqnozlaşdırılıb. Ölkə əhalisinin rifahının yaxşılaşdırılması və sosial müdafisinin gücləndirilməsi istiqamətində məqsədyönlü kursun 2013-cü ildə də davam etdirlməsi prioritet vəzifələrdən olacaq. Ölkənin milli təhlükəsizliyinin, müdafiə qabiliyyətinin gücləndirlməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi üçün müdafiə xərclərinə ayrılan

> Ümumdaxili məhsulun artım tempinə görə Azərbaycan Müstəqil Dövlətlər Birliyi məkanında lider ölkələr sırasındadır. 2013-cü ildə ümumdaxili məhsulun həcmi 71 milyard dollar təşkil edəcək ki, bu da 2003-cü illə müqayisədə 8 dəfə çoxdur.

vəsait gələn il də artırılacaq. Neft gəlirlərinin hesablanmasında 1 barel xam neftin satış qiyməti 100 Amerika Birləşmiş Ştatları dolları səviyyəsində götürülüb.

İqtisadi İnkişaf Naziri Şahin Mustafayev ölkənin iqtisadi imkanlarından, bu sahədə həyata keçrilən və reallaşdırılması nəzərdə tutulan layihə və proqramlardan danışaraq deyib ki, 2013-2016-cı illərdə əhalinin gəlirlərinin orta hesabla illik 6,6 faiz artımı, eyni zamanda əsas kapitala qoyulan böyük həcmli investisiyalar və ixrac ümumi daxili məhsulun tələb kompanentlərinin iqtisadi artımına müsbət töhvəsini təmin edəcək. 2013-cü ildə iqtisadi artım 5,3 faiz proqnozlaşdırılır. Bunun əsasını da qeyri-neft sektoru təmin edəcək.

Büdcə layihəsinə Hesablama Palatası rəy verib. Palatanın sədri Heydər Əsədov 2013-cü ilin büdcə layihəsini müsbət xarakterizə edən məqamlardan danışarkən deyib ki, hər il büdcə proqnozları əhəmiyyətli dərəcədə kəmiyyət və keyfiyyətli artımla tərtib olunur. Büdcə şəffalığı ilə də seçilir. Layihə hədəflərə, prioritetlərə, müasir çağırışlara uyğun hazırlanıb. İlk dəfə olaraq gələn ilin büdcə xərcləri 25 milyard dollar proqnozlaşdırılıb ki, bu da rekord həddir. Ən mühüm müsbət məqamlardan biri gələn il ölkənin borclanmasının aşağı səviyyəyə enməsi olacaq. Dünya ölkələri xarici borclanmadan əziyyət çəkdiyi halda Azərbaycanın xarici borclanma limiti növbəti ildə 2012-ci ilə nisbətən 2 milyard manatdan 750 milyon manata endiriləcək. Müzakirələr zamanı çıxış edən millət vəkilləri də bildiriblər ki, 2013-cü ilin büdcə layihəsi də xeyli təkmil sənəddir. Layihədə ölkənin bütün sahələrinin davamlı inkişafı üçün maliyyə təminatının yaradılacağı əksini tapır. Azərbaycan hökuməti maliyyə imkanlarından səmərəli istifadə etməklə yanaşı yeni maliyyə mənbələri tapır. Gələn il ölkədə mühüm əhəmiyyət kəsb edən proqram və layihələrin icrası davam etdirlməklə yanaşı, yenilərinin də həyata keçrilməsinə başlanılacaq. Büdcə xərcləri sosial və investisiya yönümlülüyünü saxlayacaq. Sosial ipoteka xərcləri iki dəfə artırılacaq.

## XARİCİ İQTİSADİ XƏBƏRLƏR

ABŞ siyasətçiləri tərəfindən büdcə kəsirini azaltmaq üçün ardıcıl proqramın qəbul olunmaması və S&P-yə görə ABŞ-ın ən yüksək kredit reytinqinin itirməsi, Avropa və periferik ölkələrin bir çox analitikləri və bazar iştirakçıları borc böhranının artmasından sonra gözlənilən tənəzzülü bəhs edən "böhranın ikinci dalğası"ndan, fond indekslərinin aşağı düşməsindən 2011-ci ilin ikinci yarısını 2008-ci ildəki vəziyyət ilə müqayisə etdilər; dünya iqtisadiyyatı və maliyyə bazarlarında "qara buludların" toplanması yenidən  müşahidə olunur. Lakin, 2011-ci ilin noyabr – dekabr aylarında fond indeksləri artmağa başladı və bu tendensiya 2012-ci ilin yanvar – fevral aylarında davam etdi.  (demək olar ki, bütün dünya indeksləri noyabrın sonu - dekabrın əvvəli "0"-dan 10% -dək artıb). Ümumiyyətlə, makroiqtisadi statistika maliyyə bazarlarında olan vəziyyəti daha  adekvat təsvir edir: ÜDM-in artımı və inflyasiya tempinin dəyişməsini, siyasət hökümətləri və mərkəzi bankları tərəfindən həyata keçirilən iqtisadi agentlərin biznes fəaliyyətini bilərək, fond bazarında indekslərin dinamikasını, faiz dərəcələri, və s daha dəqiq müəyyən etmək olar. Problem ondadır ki, bu yalnız retrospektiv həll edilə bilər.  Bazar dəyişən  şərtlərə, statistik məlumatı qiymətləndirmək üçün zəruri vəziyyətin yaranmasından daha sürətli reaksiya verir. Problemin bir hissəsi yüksək

tezlik və naşr sürətinin göstəricilərinə diqqət ilə həll edilir. Buna baxmayaraq, makro təhlil bizə maliyyə bazarında olan trendlərin sabitliyi və onun gələcək davranışının üstün istiqamətlərini hesablamaq üçün imkan verir.

Əslində 2012-ci ilin gündəmində yenə 2011-ci ilin sonunda iqtisadi icmanın diqqət mərkəzində olan həmin üç sual idi: Avropa borc böhranının aradan qaldırılması perspektivləri, büdcə kəsirinin azalması fonunda ABŞ-ın iqtisadi artımının azalma riski və Çin iqtisadiyyatının "yumşaq eniş"inin dərinliyi.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) qlobal iqtisadi artım proqnozlarını aşağı saldı və avro bölgəsindəki borc böhranının qlobal iqtisadiyyata ən böyük təhlükə olması barədə xəbərdarlığ etdi. Bu dəhşətli iqtisadi perspektivlər fonunda İƏİT Ölkələri borc böhranına cavabları olmadığı halda mərkəzi banklarının daha selektiv pul siyasətinə hazırlaşmağa əmin etdi. Parisdə yerləşən "sinir mərkəzi" ildə iki dəfə dərc olunan hesabatında dünya ÜDM-in 2012-



ci ildə 2,9% və 2013-ci ildə 3,4% artacağını bildirib. Beləliklə, hesabatda çox əhəmiyyətli düzəliş edilib: İƏİT-in may ayında verdiyi proqnozuna görə 2012-ci ildə 3,4%, 2013-ci ildə 4.2% qlobal artımın baş verəcəyi fərz edilirdi. İƏİT-na daxil olan 34 ölkədə ÜDM artımı 2012 və 2013-ci ildə 1,4% səviyyəsində və 2014-ci ildə 2.3%-ə qədər sürətlənəcəyi proqnozlaşdırılır. Avropada iqtisadi tənəzzül iki il olacaq. Konqresmenlərin

gələn il qüvvədə olan vergi yükü və xərclərin azaldılması barədə razılıq əldə olunmayacağı halda ABŞ tənəzzül riski ilə üzləşəcək. İƏİT-in may proqnozuna baxmayaraq gələn il dünyanın ən böyük iqtisadiyyatı 2,6% yox, yalnız 2.0% səviyyəsində artacaq. Avro bölgəsi qeyri-sabitlik bölgəsi qismində qalmaqdadır. Düzəlişə əsasən, İƏİT Avro Bölgəsi iqtisadiyyatının bu il 0,4% və gələn il daha 0,1% azalmasını, 2014-ci ildə isə 1.3% artıma qayıdacağını proqnozlaşdırır. İƏİT xəbərdarlıq edir ki, siyasətçilərin borc böhranı problemini həll etmədiyi halda dəyişkən maliyyə şəraiti Avropa pul birliyinin parçalanmasını təhdid edir. Qlobal iqtisadi perspektivlərin zəifliyini nəzərə alaraq, İƏİT hökümətləri "kəmərləri sıxma" siyasətinə səslədi; Almaniya və Çin ölkələrini artımın bərpası üçün hətta müvəqqəti olaraq stimullaşdırıcı xərc etmələrini tövsiyə etdi. İƏİT ekspertlərinin fikrinə görə yunan iqtisadiyyatında tənəzzül nəzərdə tutulan dövrdən daha artıq olacaq. Yunanıstan iqtisadiyyatının artımı 2015-ci ilədək başlamayacaq. Bu Afinanın 7 il tənəzzül keçirəcəyi deməkdir. Əvvəlki proqnoz yunan iqtisadiyyatının tənəzzülünü 2014-cü ildə bitəcəyini nəzərdə tuturdu. Hal- hazırda İƏİT ekspertləri Yunanıstan ÜDM-nun 2014-ci ildə 1,3% azalmasını proqnozlaşdırır. Bu rəqəm ÜDM 0,2% artacağını gözləyən yunan hakimiyyəti orqanlarının hesablamalarından çox fərqlənir. İƏİT tövsiyə edir ki, Afina iqtisadi artımı stimullaşdıracaq islahatlara daha çox diqqət yetirməlidir. Məhz bu istiqamət, xərcləri azaltmaq proqramını təqib edən yunan höküməti üçün prioritet olmalıdır.

Rusiya iqtisadiyyatına gəlincə isə, İƏİT may hesabatında ÜDM-nun 2012-ci ildə gözlənilən 4,5% iqtisadi artımını 3,4% ilə əvəz etdi. 2013-cü il üzrə ÜDM-in artımı 4,1%-dən 3,8%-ə endirilib. Hesabatda qeyd edilir ki, Rusiya iqtisadi artımında zəifləmə Avro Bölgəsində borc böhranının davam etməsi fonunda baş verib. Digər tərəfdən,



ölkədən kapitalın axınının azalması investorların daxili artım perspektivləri və siyasi sistemə inamını göstərir. Təşkilat 2013 və 2014-ci ildə Rusiya ÜDM-nin artımının sürətlənməsini gözləyir. Müsbət proqnozlar neft qiymətlərinin yüksək səviyyədə qalacağı və Avro Bölgəsində borc böhranının aradan qaldırması mümkün olduğu halda reallaşacaq. 2014-ci ildə Rusiya ÜDM-in artımı 4,1% səviyyəsində gözlənilir. İƏİT ekspertlərinə görə, Rusiya iqtisadiyyatı üçün əsas risklər, avro bölgəsindəki borc böhranının artması ilə bağlı dünya iqtisadiyyatının zəifləməsi nəticəsində neft qiymətlərinin aşağı düşməsi səbəb ola bilər. İƏİT qeyd edir ki, Rusiya büdcəsinin profisiti tədricən azalacaq, (cari ildə ÜDM-in 0,5% səviyyəsində, 2013-ci ildə isə - 0.1%-i gözlənilir). 2014-cü ildə Rusiya balanslaşdırılmış büdcəyə keçəcək.

*Bağırov Ramil*